# ERMƏNİSTAN AZƏRBAYCANLILARI VƏ ONLARIN ACI TALEYİ

***Fəlsəfə elmləri doktoru Sabir Əsədovun tarix elmləri namizədi İsrafil Məmmədovla zəngin mənbələr, rəsmi məlumatlar və məxəzlər əsasında birgə yazdığı “Ermənistan azərbaycanlıları və onların acı taleyi” tarixi oçerkini oxuculara təqdim edirik.***

***(əvvəli 29, 30 aprel, 1, 2, 3, 5, 6, 7, 14, 15 və 17 may tarixli saylarımızda)***

Azərbaycanda isə ermənilərin sayı iki dəfədən çox artaraq 487 min nəfərə çatmışdır. Doğrudan da, erməni millətçiləri həmişə faktları başı üstə qoymağa vərdiş etmişlər. Azərbaycanlıların yarımkölə vəziyyətdə yaşadıqlarını gizlədərək guya ermənilərin Azərbaycanda sıxışdırıldığı haqda şayiələr yaymışlar. Soruşula bilər: ayrı-seçkilik harada olub, Azərbaycanda, yoxsa Ermənistanda? 1988-ci ildən sonra Ermənistanda azərbaycanlıların sayı sıfra enmişdir. Azərbaycanda isə hələ də 30 min nəfərdən çox erməni yaşayır.

Halbuki azərbaycanlıların artım faizi həmişə ermənilərdən təqribən 2-3 dəfə yüksək olmuşdur. Tədqiqatçıların müəyyən etdiyi kimi “Qəhrəman ana” adının təsis olunduğu dövrdən bəri SSRİ Ali Sovetinin Ermənistan üzrə verdiyi fərmanlarda hər 10 Qəhrəman anadan 70-80 faizi azərbaycanlı olmuşdur. Lakin təəssüf ki, əhalinin siyahıya alınmasında Ermənistanda azərbaycanlıların sayı həmişə azaldılmış, bir çox qarışıq kəndlərdə yaşayan azərbaycanlılar, erməni kəndlərində olan yüzlərlə azərbaycanlı, ümumiyyətlə, siyahıdan kənarda qalmışdır.

Bu sahənin tədqiqatçıları, şübhəsiz, gələcəkdə sübut edəcəklər ki, axırıncı 1988-1989-cu illərdə Ermənistandan qovulan azərbaycanlıların sayı müxtəlif mənbələrdə göstərildiyi kimi, 165 min, 189 min, hətta 200 min deyil, daha çoxdur. Tərk etdikləri ərazi isə bəzən mətbuatda göstərildiyi kimi 6.000 kv. km deyil, hesablamaların göstərdiyi kimi, 9.800 kv. km-dən çoxdur. Nəzərə almaq lazımdır ki, Ermənistanın indiki ərazisinin 36 rayonundan 33-də 1918-ci ilədək azərbaycanlılar yaşamışdır. Bu rayonların keçmiş inzibati-ərazi bölgülərində 1200-dən artıq azərbaycanlı kəndi olmuş, 1988-ci ildə isə 22 rayonda 185 azərbaycanlı kəndi qalmışdır (bütün bu kəndlərin tarixi coğrafiyası, əhalisi haqqında 30 çap vərəqi həcmində kitab hazırlanmışdır).

## DÖRDÜNCÜ MƏRHƏLƏ–1988-ci İL VƏ YA SON QAÇQINLIQ

Uydurma Qarabağ probleminin ilk ideoloqlarının yaşlı nəsli Yakov Zarobyan (MK-nın keçmiş birinci katibi), Hovhannes Baqdasaryan (MK-nın keçmiş ikinci katibi), Viktor Hamparsumyan (akademiyanın prezidenti), Sero Xanzadyan, Çon Kiraqosyan, Aramais Mnatsakanyan, B. Bablumyan və Hovhannes Şiraz (Silva Kaputikyanın əri, türkiyəli, məlumatlar erməni Sovet Ensiklopediyasından götürülüb) olmuşlar. Onlar Türkiyədən Anadolunu almaq, Azərbaycandan Dağlıq Qarabağı və Naxçıvanı qoparmaq uğrunda ümumerməni hərəkatının əsasını qoymuşlar. Separatizmi davam etdirən Silva Kaputikyan, öz cızmaqarası ilə iki xalqı biri-birinə düşmən edən, yüzlərlə adamın qanına bais olan, yarım milyon adamı didərgin salan, Azərbaycandan SSRİ xalq deputatı olan, hələ də tökdüyü qanlar üçün cəzalandırılmayan əldəqayırma yazıçı Zori Balayan və onlara qoşulan poqosyanlar, manuçaryanlar, dadamyanlar olmuşlar. 1988-ci ilin fevralında Kaputikyanın komandasını M. S. Qorbaçov qəbul etdikdən sonra Mərkəzin təhriki ilə DQMV soveti Konstitusiyaya zidd qərar qəbul edib vilayətin Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi məsələsini Ermənistan SSR və SSRİ Ali sovetlərinin qarşısında qoymuşlar.

Zori Balayanın cızmaqaraları bir yana qalsın, Ermənistan SSR Ali Sovetinin sessiyasındakı çıxışı onun fitnəkarlığının əyani sübutu idi: “Bir daha ölkədə Qarabağ faciəsinin təkrar olunmaması üçün təcili surətdə SSRİ Ali Sovetinin və Ermənistan SSR Ali Sovetinin himayəsi altında Naxçıvan Muxtar Respublikasında ermənilərin və rusların genosidinin təşkilatçılarını mühakimə etmək lazımdır” (“Kommunist” qəzeti (Yerevan) 27 iyun, 1989-cu il). Belə böhtan üçün şərh də tələb olunmur. Lakin Ermənistan daxili işlər nazirinin birinci müavini V. Yerin SİTA-nın müxbirilə müsahibəsində balayanların bu faciənin törədilməsində fitnəkar rolunu çox düzgün müəyyənləşdirmişdir:-”DQMV ətrafında törədilən fitnəkarlıqların nə “qaraköynəklər”, nə “ağköynəklər” və nə də “saqqallılar” törətmişlər. Onlar ancaq bir il əvvəl (əlbəttə bir il deyil, 30 il əvvəl - müəlliflər) yaradılmış “Qarabağ komitəsi”nin 10-12 nəfər ideoloqunun iradəsinin kor-koranə icraçılarıdır”(“Pravda” qəzeti, 18 dekabr, 1988-ci il). İki qonşu respublika arasında milli qırğın salanlar bax həmin ideoloqlardır.

Bu münasibətlə belə bir vacib sual meydana çıxır. Bu qırğınların, bu qaçqınlığın qarşısını almaq mümkün idimi? Bəli, tam mümkün idi. Əgər Mərkəz əvvəlcədən qanun mövqeyində durub, DQMV sovetinin qanunsuz qərarını birinci gün ləğv etsəydi, ikinci, üçüncü qanunsuzluğa yol verilməzdi, qan tökülməzdi, adamlar öz yurdunu qoyub qaçmazdı. Bu qanların günahkarı həm Ermənistan hökuməti və ona havadarlıq edən Mərkəzi hökumətdir, həm də Azərbaycanın rəhbərliyinin hadisələrdən baş çıxarmaması, situasiyanı düzgün qiymətləndirə bilməməsidir. Keçmiş SSRİ xalq deputatları qurultayında çıxış edən RSFSR xalq deputatı N. B. Çelnokov İttifaqın erməni - Azərbaycan münaqişəsində rolunu çox düzgün qiymətləndirmişdir: “Kim ki, deyir ittifaqı məsələn, erməni - Azərbaycan münaqişəsini həll etmək üçün saxlamaq lazımdır, mən istərdim onlara xatırladım ki, bu münaqişə məhz ittifaq çərçivəsində meydana gəlmiş və genişlənmişdir (“İzvestiya” qəzeti, 5 sentyabr, 1991 №211, s.7).

Günahsız adamların, uşaqların, qadınların və qocaların qanının tökülməsində, milli münaqişələrin kəskinləşməsində və yenilərinin meydana çıxmasında mətbuatın və digər kütləvi informasiya vasitələrinin cinayətkarcasına səhv, birtərəfli, subyektiv məlumatlarının çox neqativ rolu olmuşdur. 1988-ci ilin fevralında olduğu kimi, o qanlı qırğınlardan 4 il keçdikdən sonra da mərkəzi mətbuatın erməni lobbisinin təkidi ilə öz mənfi rolunu davam etdirməkdə, millətlər arasında ədavəti qızışdırmaqda davam edirdi. 1991-ci il sentyabrın 2-də, 3-də DQMV-nin SSRİ Ali Soveti tərəfindən səlahiyyəti alındən alınmış sovetinin qanunsuz, Konstitusiyaya zidd uydurma qərarını, – keçmiş Şaumyan rayonunun ərazisinin bir hissəsini DQMV-yə birləşdirərək Dağlıq Qarabağ erməni respublikası yaradılması şayiəsini bütün mərkəzi qəzetlər: “Pravda”, “İzvestiya”, “Komsomolskaya pravda” və digər qəzetlər birinci səhifələrində dərc etdikləri halda, bu qərarın Konstitusiyaya zidd olmasına dair Azərbaycan Respublikasının qanuni dövlətinin – onun Ali Sovetinin qanuni fərmanı haqqında məlumatı belə verməmişlər. Bu halda mərkəzi mətbuat açıq surətdə qanunsuzluğu həvəsləndirmək, milli ədavəti qızışdırmaq məqsədi daşımırdımı? Ermənistan mətbuatı və mərkəzi mətbuat milli ədavəti qızışdırdığına görə, Azərbaycan mətbuatı isə qırğınlar dövründə cinayətkarcasına susduğuna görə (rəhbərliyin tapşırığı ilə) məsuliyyət daşıyır. Nə Azərbaycan mətbuatı, nə də Mərkəzi mətbuat milli qırğının başlanğıcını qoyan Əsgəran rayonunda ermənilər tərəfindən öldürülən iki azərbaycanlı haqqında heç bir məlumat verməmişdi. Lakin erməni millətçiləri Sumqayıtda təxribat təşkil etdikdən sonra iki il ərzində Ermənistanın bütün mətbuatı, Mərkəzin bir sıra kütləvi informasiya vasitələri azərbaycanlıları qaniçən, vəhşi bir xalq kimi dünya ictimaiyyətinin diqqətinə çatdırmağa cəhd etmişlər. Bunu hansı ədalət meyarına sığışdırmaq olar ki, Sumqayıtda erməni millətindən olan 26 nəfərin öldürülməsi üçün 96 nəfər məhkum edildiyi, ölüm cəzası tətbiq olunduğu halda, Ermənistanda 217 nəfərin vəhşicəsinə öldürülməsindən nəinki dünya ictimaiyyəti, hətta Azərbaycanın özündə belə adamların çoxu xəbərsizdi. Azərbaycan Respublikası Ali Soveti sədrinin SSRİ Prokurorluğuna sorğusuna verilən cavabdan görünür ki, Ermənistanda olan qırğının istintaqı Sumqayıtda olduğu kimi, SSRİ Prokurorluğuna deyil, Ermənistanın hüquq-mühafizə orqanlarına tapşırılmışdır. Əlbəttə buna sözümüz yoxdur, heç irad tutmaq niyyətində də deyilik. Lakin onların icraatında olan 530 cinayət işindən 200 iş üzrə cinayətin açılmaması və istintaqın dayandırılmasına nə haqla bəraət qazandırmaq olar? Cavab məktubunda eyni zamanda göstərilir ki, Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş cinayətlərlə əlaqədar 91 müttəhim barəsində cəmi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfəri müxtəlif müddətə azadlıqdan məhrum edilmişdir. Ədalətli hökmə bir baxın, 217 nəfərin vəhşicəsinə öldürülməsi üçün 30 nəfər məsuliyyətə cəlb olunmuş, onlar da adi, yüngül cəza almışdır.

Dünyada, ölkədə baş verən bu ədalətsizlikləri dünya ictimaiyyətinə çatdırmaq üçün tədqiqatçı Arif Yunisovun çox böyük zəhməti nəticəsində toplandığı və “Ekspress-xronika” (9, (186), 1991) qəzetində dərc etdirdiyi “1988-1989-cu illərdə Ermənistandakı qırğınlar” məqaləsindən gətirdiyimiz aşağıdakı parçalar oxucuda daha geniş təsəvvür yarada bilər:

“Əldə olan materialdan nə görünür?! 214 qurbandan azərbaycanlıların böyük bir qismi (186 nəfər, yaxud təqribən 87 faiz) Qarabağ münaqişəsinin elə birinci ilində, yəni 1988-ci ildə həlak olmuşdur. Sonrakı ildə onlara 28 nəfər və son dərəcə ehtiyatsızlıq edərək 1990-cı ildə Vardenis rayonuna öz evinin taleyini araşdırmaq üçün gəlmiş və ölüncəyədək döyülmüş bir gənc də əlavə olunmuşdur. Kəndlilər arasında qurbanlar daha çoxdur. (188 nəfər -88 faiz, şəhərlilərin sayı isə 26 nəfərdir- 12 faiz), Qırğınlar Ermənistanın 19 rayonunda baş vermişdi, həm də öldürülmüşlərin və ölmüşlərin ən çoxu (40 nəfər) Vardenis rayonuna düşür. (“Qolos Armeniya” qəzetindəki məqaləyə inansaq, həmin rayonun erməni əhalisi köçüb gedən azərbaycanlılara riqqət doğuran qayğı göstərmişdir).

11 şəhər arasında “lider” Masisdir (8 nəfər), Kalininoya -5, Yerevana -4, Kacarana -2, Kirovakan, Qafan, Gorus, Sisyan, Spitak, Amasiya və Alaverdi şəhərlərinin hər birinə 1 qurban düşür.

Materiallardan görünür ki, 214 nəfərdən 127-si (59 faiz) öldürülmüşdür. Onların əksəriyyəti (50 nəfər və ya 23 faiz) ölüncəyədək döyülmüşdür, daha 35 nəfər (16 faiz), o cümlədən 7 uşaq və 10 ahıl vəhşicəsinə işgəncələrdən sonra ölmüşlər. 15 azərbaycanlı (7 faiz), o cümlədən Quqark rayonundan olan 9 yaşlı Z.İ.Nəbiyeva və 78 yaşlı K.M.Əliyeva yandırılmışlar. Bir o qədər də (o cümlədən 2 uşaq və 6 qoca) güllə ilə öldürülmüşdür. 7 nəfər miniklə basılmışdır. 3 nəfəri suda boğmuşlar, 1 nəfəri elektrik cərəyanı ilə öldürmüşlər. Nəhayət, Amasiya rayonundan olan 19 yaşlı B.İ.Haqverdiyevi asmışlar.

Saya görə ikinci kateqoriyanı gördükləri və başlarına gələn müsibətlər üzündən infarkt nəticəsində ölüm hadisələri (10 nəfər), tibbi heyətin günahı üzündən xəstəxanada ölmüşlər (16 nəfər), Ermənistandan qaçan zaman, dağ keçidlərində qarlı çovğun, boran vaxtı donmuşlar (49 nəfər), ümumiyyətlə, 65 nəfər (30 faiz) təşkil edir. Sonuncu halda gözləndiyi kimi, daha çox uşaq (6 nəfər) və ahıl (27 nəfər) həlak olmuşdur.

Nəhayət, iki nəfər, təhqirlərə dözməyib intihar etmişdir. Azərbaycanlıların göstərdiyi kimi, 12 nəfər üçün “bədbəxt hadisələr” təşkil edilmişdir, səkkiz nəfərin taleyi isə indiyədək naməlum qalmaqdadır və onlar itkin düşmüş hesab olunur.

Öldürülmüşlərin və ölmüşlərin əksəriyyəti yaşlı nəslin (21 yaşından 59 yaşınadək) nümayəndələridir (109 nəfər —51 faiz). Onlardan 24-ü qadın, 85-i kişidir. Ahıllar, yəni 60 yaşından yuxarı olanlar 77 nəfərdir (36 faiz). Onlardan 22-si qadın, 55-i kişidir. Onların arasında ən qocası ölüncəyədək döyülmüş 89 yaşlı V.S.Şıxıyevdir (Noyemberyan rayonunun Yuxarı Körpülü kəndindəndir.) Uşaqlar (Ararat rayonunun Şirazlı kəndindən olan 2 aylıq körpələrdən 14 yaşlı yeniyetmələrədək 19 nəfərdir (19 faiz). Onlardan 10-u qız, 9-u oğlan uşağıdır. (15 yaşından 20 yaşınadək olan gənclərin arasında qurbanların sayı nisbətən azdır (9 nəfər, 14 faiz) Onlardan biri qız, səkkizi oğlandır.

Quqarkda ermənilərin törətdikləri vəhşilikləri təsvir etmək çətindir. Yalnız noyabr ayının axırı və dekabrın əvvəlində burada 70 nəfər azərbaycanlı öldürülmüşdür. Onlardan 21 nəfəri (o cümlədən 6 qadın, 3 uşaq) Gözəldərə kəndində, 17 nəfəri Vartana kəndində öldürülmüşdür).

Qırğınlar və qovulmalar necə həyata keçirilirdi?

Azərbaycanlıların Ermənistandan yalnız Sumqayıt hadisələrindən, özü də az qala 8 aydan sonra qovulmağa başlanması haqqında ölkəmizdə və xaricdə geniş yayılmış şayiə həqiqətə uyğun deyildir.

1988-ci il yanvarın 25-də, fevralın 18 və 23-də, Azərbaycana azərbaycanlı qaçqınların növbəti qrupu gəldi və onların sayı 4 min nəfərə çatdı. Bu hələ ki, münaqişənin “qeyri-aşkar” dövrü olduğundan həmin vaxt azərbaycanlılara qarşı taktika da müvafiq idi: hədə-qorxu, döymə, şantaj. Lakin bu hələ kütləvi hal almamışdı, buna görə də rəqəm o qədər də böyük deyil.

***(davamı növbəti saylarımızda)***